# NƏSİMİ YARADICILIĞI BÜTÜN DÜNYANIN SƏRVƏTİDİR

Hər bir xalqı dünyada tanıtdıran onun tarixi, mədəniyyəti, musiqisi, incəsənəti ilə bərabər, istedadlı qələm sahibləridir ki, yazdıqları əsərlərlə dünya ədəbiyyatı xəzinəsinə töhfə vermiş olsunlar. Azərbaycan xalqı bu baxımdan ən xoşbəxt və varlı xalqlardandır, desək, qətiyyən yanılmarıq, çünki xalqımız var olduğu zamandan indiyə qədər mütəfəkkir şair və yazıçılarımızın əsərləri həmişə dünya poeziyasının nadir inciləri sırasında yer alıb. Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai və adını çəkmədiyimiz neçə-neçə söz xiridarları ilə bütün dünyada tanınan Azərbaycan xalqı həmişə ustadlarının qədrini bilib, onlarla fəxr, qürur duyub. Bu dahi şəxsiyyətlərin dəfələrlə beynəlxalq səviyyədə yubileyləri keçirilib.

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi və 2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi ili" elan olunması haqqında Prezident İlham Əliyevin müvafiq sərəncamları da xalqımızın tükənməz milli-mənəvi sərvətləri sayılan bu şəxsiyyətin dünyada tanıdılmasına və onun irsinin təbliğinə xidmət göstərir.

İmadəddin Nəsimi xalqımızın ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustasıdır. Nəsimi Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalıb və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirib. Elə bu səbəbdən də mütəfəkkir şair İslam Şərqində ictimai-fəlsəfi şeirin ən böyük nümayəndələrindən hesab olunur. Onun yaradıcılığında insan obrazı bəşəri və eyni zamanda ilahi xüsusiyyətlərə malikdir. Şairin dərin poetik fikirləri və fəlsəfi görüşləri, eyni zamanda dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələdir.

"Nəsimi ili" Azərbaycanda elan edilsə də, silsilə tədbirlər təkcə respublikamızda deyil, dünyanın bir çox ölkələrində reallaşdırılır. Bu tədbirlər, demək olar ki, bütün sahələri əhatə edir. Dahi şairə sevgi, ehtiram o qədər böyükdür ki, hər kəs yubiley ilinə öz töhfəsini verməyə çalışır.

## Üzərində Nəsiminin əksi olan kəlağayılar görənləri valeh edir

Qədim Basqalın tarixi abidələri, maddi-mədəniyyət nümunələri və dünyada tanınan kəlağayıları hər zaman qəsəbədə olan yerli və xarici qonaqların diqqətini çəkib. Bütün bu işləri ərsəyə gətirənlər isə Basqalda yaşayan və hər zaman yeni axtarışlarda olan, eyni zamanda qədim adət-ənənələri yaşadan yerli sənətkarlardır.

**"63 yaşlı Mürşüd Talıbov ixtisasca oymaçıdır, əlli ildir kəlağayı istehsalı ilə məşğuldur. Bu günə kimi saysız-hesabsız kəlağayı boyayıb naxış vuran Mürşüd Talıbov ilk dəfə olaraq dahi Azərbaycan şairi İmadəddin Nəsiminin şəklini kəlağayı üzərinə köçürüb. Bu, basqallı ustanın həm də "Nəsimi ili"nə bir töhfəsidir. Dediyinə görə, digər naxışlı kəlağayılardan fərqli olaraq, Nəsiminin portreti həkk olunan kəlağayıların hazırlanmasına xeyli vaxt sərf edilib.**

Eyni zamanda adi kəlağayılarda 1–2 rəng lazımdısa, bu kəlağayıların boyanmasında 5–6 rəngdən istifadə olunub. Usta hazırladığı bu işlərdən əlavə, digər kəlağayıların üzərinə Nəsiminin Azərbaycan və xarici dillərə tərcümə olunan qəzəllərini də köçürməyi planlaşdırır. Müxtəlif boyalardan və milli naxışlardan istifadə ilə ərsəyə gətirilən bu əl işləri turistlərin böyük marağına səbəb olur.

## "İmadəddin Nəsimi – 650" poçt markaları hazırlanıb

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərmarka" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hazırlan-










mış "İmadəddin Nəsimi – 650" poçt markaları da bu ilin suvenirləri siyahısına daxildir. Buraxılış dahi şairin 650 illiyi münasibətilə 2 poçt markasından ibarət blok şəklində hazırlanıb. Blokun yuxarı hissəsindəki markada İmadəddin Nəsiminin silueti, aşağı hissədəki markada isə yazı ləlayi təsvir edilib. Blokun ölçüsü 72x92 millimetr, markaların ölçüsü 51x36 millimetrdir. Dizayneri "Azərmarka"nın baş rəssamı Vüqar Əyyubov olan markalar 10 min tirajla çap edilib. Həmçinin 400 ədəd birinci gün zərfləri də hazırlanıb.

*"Mən öləndə Şah Xəndanda basdırın,*
*Çünki onun Şahi-Xəndanı vardır".*

Məlum olduğu kimi, Nəsiminin məzarı Suriyanın Hələb şəhərindədir. Lakin ölməz şairimizin qardaşı Şah Xəndanın məzarı Azərbaycanda, Şamaxı şəhərində yerləşir. "Nəsimi ili" çərçivəsində görülən vacib işlərdən biri də Şahxəndan türbəsinin təmiri ilə bağlıdır.

Şamaxı rayonunda "Şah Xəndan" məzar-türbəsinin ətrafının abadlaşdırılması işlərinə başlanılıb. XV əsrdə inşa edilən bu türbə Azərbaycanın görkəmli şairi, mütəfəkkir (1369–1417) İmadəddin Nəsiminin qardaşı Şah Xəndana (Şah-i Xəndan) məxsusdur. Türbənin içində iki yanaşı qəbir var. Məlumata görə, məzarın biri Nəsiminin qardaşı Şahxəndana, o biri isə həyat yoldaşına aiddir. Digər ehtimallara görə, məzarda uyuyan qadın Şah Xəndanın nişanlısı olub.

Nəsiminin Şah Xəndan adlı qardaşı vaxtsız vəfat etdiyindən bu ölüm onu çox sarsıdıb, buna görə də şair bir çox qəzəllərində onu anıb. Şah Xəndan el-obada güclü təsirə və hörmətə malik olduğundan onun dəfn olunduğu qəbiristanlığı "Şah Xəndan" adlandırıblar. Şah Xəndanın dəfn olunduğu yer müqəddəs sayıldığı üçün dövrünün üləmaları, hörmətli şəxsiyyətləri də "Şah Xəndan qəbiristanlığı"nda torpağa tapşırılırdılar. Azərbaycan ədəbiyyatının məşhur simalarından biri olan şair Seyid Əzim Şirvani və bir çox tanınmış şəxsiyyətlər bu qəbiristanlıqda dəfn olunublar. Yuxarıdakı qəzəl beyti də Seyid Əzimə məxsusdur.

Türbədə sovet dövrü və sonrakı illərdə aparılan təmir-bərpa işləri böyük fəsadlar yaradıb. Sement qatışıqlı məhlulların və Xəzər dənizi qumunun istifadə edilməsi daşların zərər görməsinə, duzların yaranmasına və bakteriyaların fəallaşmasına, daxildən deqradasiyanın güclənməsinə səbəb olub. Hazırda "Nəsimi ili" ilə əlaqədar Şamaxı Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə abidənin ətrafının abadlaşdırılması və deqradasiyanın qarşısını almağa yönəlik tədbirlərə baş-



lanılıb. Abidənin köklü restavrasiyası da gündəmdədir və aidiyyəti qurumların razılığından sonra yaxın vaxtlarda bərpa işlərini də başlamaq nəzərdə tutulur.



***

Orta əsrlər Şərq poeziyasının parlaq nümayəndələrindən biri olan Nəsimi yaradıcılığındakı humanizm, mübarizlik, vətənpərvərlik, müstəqillik və azadlıq ideyaları bu gün də aktualdır. Nəsimi yaradıcılığı Azərbaycan xalqının, həmçinin bütün dünyanın mənəvi sərvətidir. Bu sərvəti qorumaq, onu gələcək nəsillərə olduğu kimi çatdırmaq bizim borcumuzdur.

**Fəxriyyə Abdullayeva**